# Azərbaycan iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artmasında müasir vergi sistemi determinantı

**Ceyhun YUSIFOV**
*Vergilər Nazirliyinin Tədris Mərkəzinin Elmi-tədqiqat işləri üzrə rəis müavini*

***Son onilliklər ərzində dünyada baş verən texnoloji və iqtisadi dəyişiklikləri qiymətləndirərkən inamla demək olar ki, biz informasiya cəmiyyətinin qurulmasını müşahidə edirik və o, öz növbəsində birbaşa yeni tipli, necə deyərlər, innovasiya iqtisadiyyatının inkişafına təsir edir. Dünya iqtisadiyyatının iqtisadi artımının əsas amilləri biliklər və yeni ideyalar olan inkişaf meyli milli iqtisadiyyatın innovasiya-intellektual tip və onun gələcəkdə təkmilləşdirilməsi üzrə köklü dəyişməsinin zəruri olduğunu diktə edir. Bu, əminliklə deməyə imkan verir ki, müasir mərhələdə iqtisadiyyatın innovasiyalı inkişafına alternativ inkişaf yoxdur və Azərbaycan iqtisadiyyatı qarşısında duran əsas vəzifələrdən biri qlobal dünya iqtisadiyyatında layiqli yer tutmaqdır.***

Beynəlxalq İqtisadi Forumun (WEF) reytinq qiymətlərinə əsasən 2009-2010-cu illər ərzində [3] Azərbaycan 2008-2009-cu il üçün [2] illik göstəricilər ilə müqayisədə öz mövqelərini kəskin surətdə yaxşılaşdırmışdır. Bir il ərzində Azərbaycan Respublikasının müasir beynəlxalq rəqabətqabiliyyətliliyi 134 dövlət arasında 4.10 rəqabətqabiliyyətlilik indeksi ilə tutduğu 69-cu yerdən 4.30 indekslə 51-ci yerə qalxmışdır ki, bu da fikrimizcə, ölkəmiz üçün bu günə görünməmiş, müsbət nəticədir. Müqayisə üçün qeyd edək ki, siyahıda birinci yeri 5.60 indeksi ilə İsveçrə tutmuşdur. Onun ardınca ABŞ, sonra Sinqapur, İsveç, Danimarka, Finlandiya və Almaniya gəlir. Bu onluğu Yaponiya, Kanada və Niderland qapayır. Mənzərənin tamlığı üçün qeyd edək ki, MDB ölkələri arasında Azərbaycan lider mövqe tutur, bütövlükdə postsovet məkanında isə yalnız 4.56 indeksi ilə 35-ci yerdə olan Estoniyanın göstəricilərindən geri qalır. Litva 53-cü, Rusiya 63-cü, Ukrayna 82-ci, Latviya isə 68-ci yerdədir, MDB-nin qalan ölkələri isə, o cümlədən regional Gürcüstan və Ermənistan reytinq cədvəlinin sonunda yerləşmişlər [3].

WEF indeksləri göstəricilərinin bu dinamikası bu gün Azərbaycan iqtisadiyyatı üçün nəinki mövcud rəqabət üstünlüklərinin



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

saxlanmasının önəmli olduğunu, həm də yeni, yüksək texnologiyalara və «biliklərin iqtisadiyyatı»-na əsaslanan innovasiyalı iqtisadiyyatın tətbiqi yolu ilə daha yüksək üstünlüklərə keçmək üçün mümkün olan hər şeyi etmək haqqında danışmağa imkan verir. Bununla yanaşı, WEF reytinqlərinin təhlili göstərir ki, bunu yalnız uğurlu makroiqtisadi göstəricilər hesabına etmək mümkün olmayacaq. Azərbaycanın müasir iqtisadiyyatının keyfiyyətli artımı ilə hər yeni addım daha çox qüvvə tələb edir və burada ümumi rəqabətqabiliyyətliliyinə təsir edən bütün amillərin yalnız tarazlı və kompleks yaxşılaşdırılması bu uğurun zəmini ola bilər.

Məlum olduğu kimi, Harvard biznes məktəbinin professoru, WEF Qlobal Rəqabətqabiliyyətliliyi İndeksinin (Global Competitiveness Index) hesablanması metodologiyasının banisi Maykl Porterin beynəlxalq rəqabət nəzəriyyəsinə[7] əsasən dövlətin vergi siyasəti rəqabətqabiliyyətliliyi sisteminin makrosəviyyəli determinantıdır, belə ki, vergi siyasəti təsərrüfat subyektlərinin fəaliyyətinin ümumi milli iqtisadi şərtlərini formalaşdırır. Vergi siyasətinin reallaşması forması vergi sistemidir ki, o dövlətin maliyyə və hüquqi sisteminin bir hissəsi olub, öz növbəsində, bir-biri ilə qarşılıqlı əlaqədə olan bir sıra elementlərdən ibarət təşkil olunmuş sistem kimi çıxış edir. Vergi sisteminin əsasını vergi təşkil edir. Bu zaman vergi sisteminin aşağıdakı tərkib hissələrini ayırmaq olar:

- vergi hüququ sistemi – vergiqoyma sahəsində hüquq normaları ilə hüquq tənzimlənməsi metodlarının məcmusu;
- vergi sistemi – müxtəlif növ vergilərin və onların tutulması metodlarının məcmusu;
- vergilərin yığılması sistemi – vergiqoymanın idarə edilməsi sahəsində əsas funksiyaların məcmusu və xüsusi fəaliyyət sahəsi kimi - vergi inzibatçılığı.

Tədqiqatın qarşısında qoyulan məqsədlərə nail olmaq üçün bizi, hər şeydən əvvəl, vergi




*Şəkil 1. Vergilər sisteminin strukturu*

sisteminin tərkib hissəsi kimi vergi sisteminin təhlili maraqlandırır, belə ki, verilmiş altsistem çərçivəsində vergi sisteminin bütövlükdə iqtisadi durumu və onun rəqabətqabiliyyətliliyinə nail olunması sisteminin tərkib hissələrinə təsiri müəyyən edilir. Şəkil 1-də vergilər sisteminin strukturu verilmişdir.

Vergi sistemi rəqabətqabiliyyətliliyi sistemində altsistem olub, öz iş məqsədlərinə malikdir ki, bunlara da aşağıdakı funksiyaların həyata keçirilməsi vasitəsilə nail olunur:

- fiskal funksiya – dövlət xərclərinin maliyyələşdirilməsinin təmin edilməsi;
- tənzimləyici funksiya – iqtisadiyyatın dövlət tənzimlənməsi;
- sosial funksiya – ayrı-ayrı sosial qruplar arasında gəlirlərin qeyri-bərabərliyini azaltmaq yolu ilə sosial tarazlığın saxlanması;
- stimullaşdırıcı funksiya.

Vergi siyasəti aparılarkən nəzərə almaq lazımdır ki, ölkənin uğurlu sənaye inkişafı üçün vergi sisteminin məqsədlərinin həyata keçirilməsi ümumi sistemin məqsədi – rəqabətqabiliyyətliliyinin yüksəldilməsi ilə ziddiyyət təşkil etməməlidir.

Beləliklə, vergi siyasətinin başlıca məqsədi iqtisadi inkişaf üçün şəraitin yaradılmasından ibarət olmalıdır ki, artıq yuxarıda qeyd etdiyimiz kimi, bu da özündə iqtisadi artım və yeni rəqabət üstünlüklərinin yaradılmasını ehtiva edir.

Hazırda rəqabət üstünlüklərinin təsnifatı kifayət qədər mürəkkəbdir. Belə ki, məsələn, sintez əsasında, artıq adı çəkilən bu və ya digər şəkildə rəqabət analizinə toxunan M.Porterin beynəlxalq rəqabət nəzəriyyəsini [6], həmçinin 2002-ci ilin iqtisadiyyat üzrə Nobel mükafatı laureatı Smit Vernonun beynəlxalq ticarətdə məhsulun həyat təşkil nəzəriyyəsinin müddəaları [8] və Rusiya alimi iqtisadçı K.Rojnovun ölkələrin rəqabətində biznesin qiymətləndirilməsi nəzəriyyəsinin [9] sintezi əsasında rəqabət üstünlüklərinin beş tipini ayırmaq olar:

1. Resurs üstünlükləri aşağıdakılar sayəsində meydana gəlir:

- Ölkə hökuməti tərəfindən kapitalın yerləşdirilməsi üçün yaradılan və mal istehsalçılarına vergi ödənişlərində, həmçinin transaksion xərclərinə qənaət etməyə imkan verən əlverişli vergi və inzibati rejimlər;
- Əlverişli yerdə olması (infrastrukturun əsas mərkəzlərinə yaxın olması);
- Təbii ehtiyatlara və daşınmaz əmlaka əlyetərli olmaq üçün əlverişli şərait;
- Aşağı faiz dərəcələri;
- Təbii ehtiyatların və işçi qüvvəsinin olması və onların ucuz olması.

2. Texnoloji üstünlüklər mal istehsalçılarında qənaəti təmin edən və istehlak effektini artıran, alınan məhsulun qiymət xarakteristikaları ilə bağlı olan kütləvi istehsal texnologiyalarının olması və istismarı ilə şərtləndirilmişdir;

3. İnnovasiya üstünlükləri buraxılan məhsulun nomenklaturunu və çeşidini sürətlə yeniləşdirməyə imkan verən elmi-tədqiqat və mühəndis-konstruktor işlərinin nəticələrinin istehsalatda vaxtında həyata keçirilməsi hesabına formalaşır və bunun hesabına alınan məhsulun keyfiyyət parametrləri ilə bağlı olan istehlak effektini artırmaq mümkün olur;

4. Qlobal üstünlüklər təsərrüfat fəaliyyətinin qeyri-iqtisadi (ekoloji və sosial) standartları və onların firma və dövlətin siyasətində həyata keçirilməsi ilə bağlıdır;

5. Mədəni üstünlüklər firmalara yaxın mədəniyyətli ölkələrdə satış bazarlarını və resursları saxlamağa imkan verən ölkə mədəniyyətlərinin yaxınlığı ilə şərtlənir.

Rəqabət üstünlüklərinin birinci üç növü – resurs, texnoloji və innovasiya – əsas və ya zəruri hesab edilir, qlobal və mədəni rəqabət üstünlüklərini isə ölkənin rəqabətqabiliyyətliliyinin saxlanması və yüksəldilməsi üçün kifayət edən şərtlər kimi göstərmək olar.

Beləliklə, Azərbaycanın vergi sistemi öz-özlüyündə resurs rəqabət üstünlüyüdür və başqa rəqabət üstünlükləri növlərinə öz təsirini göstərir. Hər bir sistemin tərkib hissələri qarşılıqlı əlaqədə və qarşılıqlı təsirdədirlər, deməli, vergi siyasəti rəqabətqabiliyyətliliyi sisteminin tərkib hissəsi kimi, makro səviyyəyə aid olaraq, müxtəlif səviyyədə sistemin tərkib hissələri ilə qarşılıqlı təsirdədirlər:

- **metasəviyyədə,** burada ictimai həyatın təşkilinin əsas siyasi və iqtisadi formaları müəyyənləşir, vergi siyasəti cəmiyyətə əhəmiyyətli dərəcədə təsir göstərə bilir, ona görə ki, ölkə vətəndaşlarının böyük hissəsi vergi ödəyiciləridir. Vergi münasibətləri çərçivəsində vergi ödəyiciləri ilə dövlət arasında qarşılıqlı təsir baş verir, onların öhdəlikləri və bir birinin qarşısında məsuliyyəti formalaşır. Belə ki, müəyyən qrup iqtisadi agentlərin vergidən yayınması dövlət tərəfindən yığımın ümumi kütləsinin saxlanması üçün vergi yükünün yüksəldilməsi, vergi inzibatçılığının gücləndirilməsi şəklində cavab tədbirlər qəbul edilməsinə gətirir. Sonuncu öz növbəsində vicdanlı ödəyicilərin vəziyyətini ağırlaşdırır, bu isə onların ümumiyyətlə dövlətə və vergi ödəməyənlərə olan münasibətinə təsir etməyə bilməz. Deməli, vergi siyasətinin təsir edə biləcəyi rəqabətqabiliyyətliliyi sisteminin mühüm determinantları sosial inteqrasiya və həmrəylikdir, cəmiyyətin islahatlara münasibətidir, sahibkarların statusuna ictimai rəyin yaradılması şəraiti və onların dövlətin inkişafında roludur. Beləliklə, biz rəqabət üstünlükləri təsnifatına müraciət etsək, bu halda vergi siyasəti metasəviyyədə mədəni və qlobal rəqabət üstünlüklərinin əmələ gəlməsinə imkan yaradır;
- **makrosəviyyədə** bütövlükdə iqtisadi sistemin fəaliyyətinin əsas şərtləri müəyyən olunur. Vergi siyasəti makrosəviyyədə dövlət siyasətinin mühüm tərkib hissəsidir ki, onun çərçivəsində pul vəsaitlərinin vergi ödəyicilərindən dövlətə hərəkətinin parametrləri müəyyən olunur. Vergi dərəcələrinin və vergiqoyma səviyyəsində dəyişikliklər iqtisadiyyatın rəqabət qabiliyyətini təyin edən çox sayda makroiqtisadi göstəricilərə: ÜDM-in səviyyəsinə, qiymətlərin səviyyəsinə, faiz dərəcələrinə və s. təsir edir. Makrosəviyyədə vergi siyasətinə təsərrüfat subyektləri tərəfindən nə dərəcədə resurs rəqabət üstünlüyü kimi baxıla biləcəyi müəyyən edilir;
- **mezosəviyyəyə** spesifik siyasət və institutlar aiddir, burada kollektiv fəaliyyət

nəticəsində həlledici şəkildə ayrı-ayrı sahələrin məhsuldarlığına, yaxud istehsalın yerləşdirilməsinə təsir göstərən tədbirlər təyin olunur. Dövlət tərəfindən mezosiyasət tədbirləri həyata keçirilən zaman makrosəviyyə vasitələrindən istifadə edilməsi mümkündür. O cümlədən, xüsusi iqtisadi agent qruplarının maraqlarına xidmət edən müəyyən vergi alətləri mezosiyasətin bir hissəsini təşkil edir. Yəni mezosiyasət makrosəviyyədə yaradılan iqtisadi agentlərin fəaliyyətinin bərabər şəraitdə olmasını aradan qaldırır. Vergi alətlərinin istifadəsi baş verən mezosəviyyədə siyasətin başlıca növləri struktur, industrial və texnoloji siyasətdir. Vergi siyasəti texnoloji və innovasiya rəqabət üstünlüklərinin formalaşmasına kömək edir;

- **mikrosəviyyə** rəqabətqabiliyyətliliyi formalaşarkən təsərrüfat münasibətlərinin müəyyənedici səviyyəsidir, belə ki, məhz müəssisələr rəqabət üstünlüklərini həyata keçirir. Eyni zamanda, mikrosəviyyə rəqabətqabiliyyətliliyinin şərtləri meta-, makro- və mezosəviyyədə qoyulur. Vergi siyasəti bütün müəssisələrin fəaliyyəti üçün eyni şərait yaradır, belə ki, qanunvericiliklə fərdi vergi rejimlərinin və güzəştlərinin tətbiqi qadağandır. Vergi siyasəti rəqabətqabiliyyətliliyi sistemində mikrosəviyyə ilə bilavasitə qarşılıqlı əlaqədədir və bu ya digər ölkənin rəqabət üstünlükləri öyrənilərkən predmet rolunu oynamır.

Ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin ardıcıl həlli nəinki Beynəlxalq İqtisadi Forumun (WEF)[3] reytinqlərində qeyd olunan, həmçinin Dünya Bankı (“Doing Business 2009”) [4] və Beynəlxalq Maliyyə Korporasiyası [5] kimi beynəlxalq maliyyə institutlarının hesabatlarında iqtisadiyyatın bütün sahələrində tərəqqi və inkişafı müşahidə etməyə imkan verir.

Göstərilənlər Azərbaycanda müasir vergi sisteminin formalaşdırılması istiqamətində həyata keçirilən islahatların davamlı və ardıcıl olmasını ön plana çəkir. Vergi sisteminin inkişafı üzrə yeni mərhələ “Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi Dövlət Proqramı (2005-2007-ci illər)”nın Ölkə Prezidentinin 12 sentyabr 2005-ci il tarixli Sərəncamı [1] ilə təsdiq edilməsindən sonra başlanılmışdır.

Bütövlükdə, Azərbaycanda özünün müasir potensialı ilə uğurlu, dünya standartlarına cavab verən infrastrukturun formalaşmasının davamı ölkənin nəinki XXI əsr texnologiyalarının tətbiqi və inkişafına əsaslanan modernləşdirilməsini sürətləndirəcək, həm də Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabətqabiliyyətliliyinin gələcək artmasına kömək edəcək.

Yekunda qeyd etmək istərdik ki, Azərbaycan Respublikası iqtisadiyyatının rəqabətqabiliyyətliliyini yüksəltmək üçün ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin müasir amillərinin formalaşmasının gücləndirilməsi zəruridir. Bu əhalinin yaşayış keyfiyyətinin yaxşılaşdırılmasının, Azərbaycan Respublikasının sosial-iqtisadi sabitliyinin və milli təhlükəsizliyinin təmin edilməsi üçün həlledici amilə çevrilməlidir.

*Дж.Юсифов*

**Современная налоговая система как детерминант роста конкурентоспособности Азербайджанской Республики**

*Резюме*

Исследована эволюция понятия «конкурентоспособность национальной экономики», обосновано собственное видение его содержательной стороны. На основе обобщения отечественного и зарубежного опыта показан процесс трансформации факторов конкурентоспособности, в частности, рассмотрена современная налоговая система Азербайджана как детерминанта роста конкурентоспособности экономики страны, происходящей под действием движущих сил развития мировой экономики.

*C.Yusifov*

**The modern tax system as a determinant of the growth of competitiveness of Azerbaijan economy**

*Summary*

Concept evolution «competitiveness of national economy» is investigated, own vision of its substantial party is proved. On the basis of generalization of domestic and foreign experience process of transformation of factors of competitiveness is shown the modern tax system of Azerbaijan as determinant of growth of competitiveness of the national economy occurring under the influence of motive forces of development of economic, in particular, is considered.

*Ədəbiyyat*

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi saytı - www.president.az
2. WEF. The Global Competitiveness Report 2008-2009. World Economic Forum, 2008 - www.weforum.org
3. WEF. The Global Competitiveness Report 2009-2010. World Economic Forum, 2009 - www.weforum.org
4. WB. World Development Report - www.doingbusiness.org
5. IFC. International Finance Corporation- www.ifc.org
6. Портер М. Конкурентная стратегия: методика анализа отраслей и конкурентов. - М.: Альпина Бизнес Букс, 2005.
7. Портер М. Конкуренция. Пер. с англ. - М.: Изд. дом Вильямс, 2005.
8. Смит Вернон. Экспериментальная экономика. Сборник избранных работ. Пер. с англ. – М.: ИРИСЭН, 2008 г.
9. Рожнов К.В. Классификация объектов оценки бизнеса. “ВОПРОСЫ ОЦЕНКИ”, №3, 2007.